# Xanəndə Məşədi Məmməd Hüseynov haqqında həqiqətlər

*(Əvvəli ötən sayımızda)*

Məşədi Məmmədin qardaşının gəlini Türrə Hüseynova (1906-2007) da mahir qarmonçalan olub [Əhsən Rəhmanlı. "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi. Bakı, Araz, 2008, 386 s. Bax. s. 105-106]. 100 yaşı olanda ona foto-şəkil göndərirlər, tanıyırsan? Cavab verir: "Nöş tanımıram, həyat yoldaşımın əmisi, xanəndə Məşədi Məmməddir." Türrə xanım soruşanda ki, Umuxanım sağdır, yox cavabı alır. Rəqsimizin dərin bilicisi, böyük ustad Əlibaba Abdullayevin (1915-1980) anası Bilqeyis xanım isə Məşədi Məmmədin əmisi qızıdır.

Arxivdə Məşədi Məmməd Hüseynova aid hansı sənədlər qalmışdısa, bunlar Elmira Abdullayevanın təşəbbüsü və vasitəsilə əldə edilib. Sənədlər o dövrün tələbinə uyğun olaraq rus dilində tərtib olunub. Məsələn, Quseynov Mamed, həyat yoldaşı Quseynova Vikaxanum göstərilib. Hər birinin qarşısında milliyyəti türk yazılıb.

Elmira xanım Nəsimi rayon Mənzil Kommunal Təsərrüfat Birliyi 48 saylı Mənzil Kommunal İstismar Sahəsindən rəis Ə.Məmmədovun imzası, möhürü ilə 24.05.2005-ci il tarixli arayış alıb. Məşədi Məmməd Hüseynovun ölüm sənədində səbəb iflic xəstəliyi göstərilir. №48601 sənəd Yasamal rayon VVADQ.

E.Abdullayevanın apardığı ciddi araşdırma bizim bu işimizə çox böyük kömək oldu. Məqalədə göstərdiyimiz faktlar arxivdən götürülən sənədlərdə öz əksini tapır.

Məşədi Məmmədin oğulları-Hüseynov Salman (1893-?), Hüseynov Aslan (1900-?), Hüseynov Süleyman (1905-1951) göründüyü kimi öz soyadları ilə doğulub ömür ediblər.

Haqqında danışdığımız diskdə Məşədi Məmmədin nəticəsi Kəmalə xanım da öz fikirlərini bildirir. O, radio, televiziya verilişlərindən eşitdiklərini dilə gətirir. Ümumiyyətlə, Məşədi Məmmədin nəvə-nəticələri onun haqqında geniş, əhatəli və fakta söykənən geniş məlumata malik deyillər. Lakin əldə olunan arxiv sənədləri əsl həqiqəti üzə çıxara bildi.

Elmira Abdullayevanın MİS-dən əldə etdiyi sənədlərin birində Məşədi Məmməd Hüseynovun ömür-gün yoldaşı Bikəxanım Hüseynova ilə 1923-cü ildə Lənkərandan Bakıya qayıtdığı və öz evinə qeydiyyata düşdüyü göstərilir. Bu onu göstərir ki, xanəndə bir müddət Lənkəranda da yaşayaraq sənət fəaliyyətində olaraq Cənub bölgəsinin əhalisinə xidmət edib.

Mətləbə qayıdaq. Ustad tarzən-pedaqoq, xalq artisti Əhməd Bakıxanov (1892-1973) yazılarının birində Məşədi Məmmədin adını çəkir: "Məşədi Məmməd (bakılı) qüvvətli, gur səsli və muğamata çox bələd idi. Bir müddət musiqi məktəbində müəllim işləmişdir. Yaxşı dərs keçmək metodu var idi. O, 1936-cı ildə vəfat etmişdir" [1, s. 9].

**Haşiyə:** "Elmira Abdullayevanın şəxsi arxivində qohumlara aid material toplanıb. Həftəlik çıxan Ekranefir qəzeti, 7-13 yanvar 2002-ci il. Burada qarmonçalan Adil Hüseynovun xalq artisti, böyük müğənnimiz Şövkət Ələkbərova ilə fotoşəkli verilib. Həmin qəzetdə A.Hüseynov haqqında "Bu gün sizinlə" başlıqlı yazıdan: "Əmisi Məşədi Məmməd tanınmış xanəndə idi. Asəf Zeynallı adına musiqi məktəbində muğamlardan dərs deyib" [1].

**Diqqət:** "1932-ci ildə həmin tədris ocağı A.Zeynallının adını daşımır, 1 nömrəli Dövlət Musiqi Texnikumu adlanırdı".

**Haşiyə:** "Adil Hüseynov dövrünün çox böyük sənətkarı olub. Onun ifaları vaxtılə radio üçün lentlərə yazılıb" [4, s. 110]. Mətləbə dönək. Göründüyü kimi Ə.Bakıxanovun fikri burada da öz təsdiqini tapır ki, Məşədi Məmməd Hüseynov Bakıda muğamı tədris edib. Rastlaşdığımız mənbələr bizə məlum edir ki, Məşədi Məmməd F.Şuşinskinin yazdığı kimi əslən şuşalı deyil, bakılıdır, vikipediyada verildiyi tək Şuşada deyil Bakıda doğulub ömür edib və əsl soyadı Hüseynovdur.

qadınları dostları ilə oradan qovur. Dostları onun belə xüsusiyyətlərini, ötkəm, hökmlü olduğunu dəfələrlə görüb müşahidə etmiş, bəzi belə hadisələrlə rastlaşmış və ona Fərzəliyev soyadı ilə yaşamasını tövsiyə ediblərmiş".

Əziz oxucu! Bu ehtimalın biridir.

**Qeyd:** "Fərz, fəraiz sözünə nəzər yetirək. Fəraiz fərz sözünün cəmidir, zəruru olan hökmlər mənası verir. Fərzalı, Fərzəli sözünün izahı belədir: Alı taleyi, Əli gümanı".

"Piron" qardaşları Neft Şirkətinin maliyyə dəstəyi ilə İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənəti" eyniadlı povesti əsasında "Filma" Səhmdar Cəmiyyəti tərəfindən 1916-cı ildə Bakıda dram janrında çəkilən ilk Azərbaycan tammetrajlı bədii filmində baş rolda aktyor Hüseyn Ərəblinski oynamışdır. Kino şirkətinin sahibləri Cabbar Qaryağdıoğlunu görkəmli xanəndə kimi filmin çəkilişinə dəvət etmişdilər.



Ə.Bakıxanov eyniadlı kitabında məşhur Azərbaycan xanəndələrinin sırasında Məşədi Məmməd Hüseynovun da adını bir daha qeyd edərək yazır: "Vaxtılə Cabbar Qaryağdıoğlu, Mirseyid Mirbabayev, Ələsgər Abdullayev, Məşədi Məmməd Hüseynov, Seyid Şuşinski, Keçəçi Məmməd, Lal Ələbbas və b. muğamlarımızı çox gözəl oxuyaraq rövnəqləndirərdilər [1, s. 51-52]. Göründüyü kimi ustad tarzən Məşədi Məmmədi Fərzəliyev deyil, Hüseynov soyadı ilə qeyd edir.

09.08.2022-ci il tarixdə Məşədi Məmmədin nəticəsi Kəmalə xanıma telefonla zəng etdim. O, dedi ki, Məşədi Məmmədin nəvələri Hüseynzadə soyadı daşıyıblar. Sözünə davam edərək bildirdi: "Ana tərəfdən ulu nənəm Umuxanım 1990-cı ildə dünyadan köçüb. Onun anasının adı Ulucahan olub. Onların bir-birlərinə danışıb ötürdükləri söz-söhbətlərindən mənə də nəsə gəlib çatıb. Belədir ki, Məşədi Məmməd ötkəm, hökmlü, qorxu-hürkü bilməyən, sözünü yerində deməyi bacaran, özünə qarşı təhlükə hiss etsə belə, atdığı addımdan çəkinməyən adam olub. Bir dəfə dostları ilə bir kafeyə gedib. Bu zaman orada əyləşən yüngül əxlaqlı qadınların onun səsi yazılan qrammafon valını dinləyib əyləndiklərini görəndə əsəbiləşir, valı patefondan çıxararaq yerə atıb sındırır. Yəni gör mənim sənətimi kimlər dinləyir. Orada şuluq düşür, Məşədi Məmməd şuluq salanları və həmin

Cabbar filmdə oxumuş və həm də xanəndələrin xoruna rəhbərlik etmişdir. Bu heyətin tərkibində Məşədi Məmməd Hüseynov da var. Müşayiətçi tarzən Qurban Pirimov, kamança ifaçısı Saşa Oqanezaşvilidir. Əyləşənlər təxminən on beş nəfərə yaxındır. Ortada bir qadın rəqs edir. Film Zaqafqaziya kinoteatrlarında uğurla nümayiş etdirilmişdir. Ssenari müəllifi Anna Potyomkina, quruluşçu rejissor Boris Svetlov olub.

Zərgər, ali təhsilli iqtisadçı, müəyyən inzibati işlərdə çalışmış, dövrünün tanınmış sənətkarlarından biri olmuş, bir çox çalğı alətlərinin ifaçısı, mahir qarmonçalan Adil Hüseynova Məşədi Məmmədin soyadı barədə sual verəndə aldığım cavab: "Bəzi qaraguruh adamlar, beləsinin bir neçəsi bizim uzaq qohumlarda, dost-aşnada, məhəllə adamlarında da olub. Onlar əmimin xanəndəlik etməsini istəməyiblərmiş. Eşitdiyimə görə, Məşəd ziyarətindən gələndən sonra onun ümumiyyətlə xanəndəlikdən uzaqlaşmasını istəyiblərmiş. Deyiblər ki, əgər oxuyursan, məsciddə rövzəxanlıq et. Qohumlarda, tanış-bilişdə olan bir neçə xurafatçı, mövhumatçının əsas tələbi onu musiqidən uzaqlaşdırmaq olub. Öz işinin vurğunu, adlı-sanlı, şöhrətli olan, sənətdən uzaqlaşmaq istəməyən Məşədi Məmməd özünə qarşı olan təpki, eyham, tənə, təsir nəticəsində Fərzəliyev soyadını götürüb".

Adil Hüseynovgilin nəsli zərgərliklə, qızıl satışı ilə məşğul olub, yaxşı qazanıb və yaxşı da yaşayıblar. Bakının qədim, məşhur məhəlləsi Zərgərpalanda Hüseynovların zərgər dükanları olub [4, s. 109]. Uşaq vaxtı atası Adilə qızıl işini, zərgərliyi də öyrətmişdi. Odur ki, o, bu işi yaxşı bilirdi və gənclik illərində bu işdə çalışmışdı. Musiqiçilər arasında onu Zərgəroğlu kimi tanıyırdılar. Adil istedadı sayəsində özü sərbəst qamon çalmağı öyrənsə də o, 14-15 yaşlarında muğam öyrənmək həvəsi Adili məşhur qarmonçalan Kor Əhəddən dərs almağa istiqamətləndirmişdi. O, ustadın öyrətdiyini dərhal götürürdü [4, s. 109].

**Haşiyə:** "Vaxtılə Bakıda bəzi nəsillərdə köhnə fikirli olanlar, mürtəce qaydalarla yaşayanlar, xürafatçılar öz nəsil nümayəndələrinin xanəndəliklə, musiqiylə, teatrla məşğul olmasını bəyənmir, qəbul etmir, hətta qəbahət, ayıb, əskiklik sayırdılar. Əslində, XXI əsrin özündə də bəzi dindarlar musiqini qəbul etmirlər, hətta küfr, haram iş sayanlar da var. Bu yazının müəllifi olaraq bildirirəm ki, yaxınım, doğmam olan bir neçə dindarın mənə münasibəti belədir:-Vaxtılə toylarda, konsertlərdə çalmısan, keçdi getdi, itdi-batdı. Hazırda isə musiqidən, musiqiçilərin həyatından məqalələr, kitablar yazırsan, verilişlərdə çıxış edirsən, tədbirləri aparırsan, hamısı qalır. Bunlara görə o dünyada cəhənnəmə gedəcəksən.

Bir nümunə ilə fikrimizi yekunlaşdıraq. İlk teatr xadimlərimizdən biri, məşhur aktyor, rejissor Hüseyn Ərəblinskinin (1881-1919) dayısı oğlu Xalıq tapançadan açılan güllə ilə vuraraq bu nadir sənətkarın həyatına son qoymuşdu. Yaxın qohumları, bu sırada Xalıq Hüseyndən teatr işindən uzaqlaşmağı dəfələrlə tələb etsələr də, xəbərdarlıqla ölümlə hədələsələr də o, öz işinin vurğunu olduğu, bu sahənin geniş təşəkkül tapmasına çalışdığı üçün deyilənlərə, hədə-qorxuya məhəl qoymamışdı. Nəticə acınacaqlı olmuş, o, öz həyatını sevdiyi işə qurban vermişdi. Hüseyn Məmməd oğlu Xələfov (Hüseyn Ərəblinski) 1919-cu il martın 4-də öldürülüb". Ehtimal etmək olarmı ki, Məşədi Məmməd də yuxarıda qeyd etdiyimiz səbəblərdən öz əsl soyadını deyil, ifasını qrammafon vallarına yazdırarkən onların üzərinə Fərzəliyev soyadını qeyd etdirib? O, sənət səfərlərinə getdiyi şəhərlərdə verdiyi konsertlərdə, bir sözlə harada səhnəyə çıxmışdısa, orada yazılıb vurulan elanlarda (afişa) Məşədi Məmməd Fərzəliyev qeyd etdirərək musiqi tarixində bu soyadla qalıb?

Araşdırma göstərir ki, onun şəcərə xəttinə, əsl-nəcabətinə aid bütün davamçılar Hüseynov və Hüseynzadə soyadında olublar.

Haşiyə: "1920-ci il aprelin 28-də bolşeviklər Azərbaycanı işğal edib Sovet hakimiyyəti qurandan sonra teatrların, klubların, musiqi məktəblərinin, mədəniyyət müəssisələrində dərnəklərin açılması, kadrların yetişdirilməsi, sənət adamlarının fəaliyyət göstərməsinə imkan yaradılması bu sahədə çalışanların artmasına gətirib çıxardı.

*(Davamı 15-ci səhifədə)*



*(Əvvəli 9-cu səhifədə)*

Möhtərəm oxucu! Bunu qeyd etməklə bizi heç də işğalçı Sovet hökumətinin təbliğatçısı kimi başa düşməyin. Cəmi 70 il mövcud olan həmin hökumət incəsənətə, çalıb-oxumaq, əylənmək və şadlanmağa daha geniş imkan yaradırdı ki, insanlar, elə Azərbaycan SSR-də yaşayanlar da yoxsul, hüquqsuz, bədbəxt həyat sürdüklərini, xalqlar həbsxanası olan bir dövlətin vətəndaşı olduqlarını hiss etməsinlər. Təbliğat elə aparılırdı ki, guya dünyada ən xoşbəxt çəmiyyət SSRİ-dədir. Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra incəsənətin bütün janrlarının, musiqinin inkişafı və dünyaya inteqrasiya edilməsi üçün geniş imkanlar yaradılıb". Əziz və dəyərli oxucu. Mahir xanəndə, muğamları ustalıqla oxuyan, imkanlı səsi, zəngulələri ilə seçilən, sevilən, Bakı, bütünlükdə Azərbaycan muğam məktəbinin nadir yetirməsi Məşədi Məmməd Əbdüləli oğlu Hüseynov haqqında əsl həqiqəti meydana çıxarmağa çalışdıq. Həqiqəti söyləmək cəsarət tələb etməklə bərabər, haqqa söykənməkdir. Araşdırma nəticəsində öyrənib bildiyimizi ortaya gətirdik, həqiqəti üzə çıxardıq və sonda ehtimallara söykənməli olduq.Əlbəttə, araşdırmanı davam etdirmək də olar və bunun üçün yenidən arxivlərə baş vurmaq lazım gələcək.Lakin lazım olan, həqiqəti təsdiq edən faktlar və sənədlər ortadadır. Deməliyik ki, araşdımamız müəyyən müsbət nəticə verdi.

Elmira Abdullayeva Azərbaycan Dövlət Səs Arxivində mühafizə edilən, klassik xanəndələrin yaradıcılığını özündə əsk etdirən yeddi səhifəlik fono sənədlərin tematik toplusunun surətini çıxararaq öz şəxsi arxivində qoruyur.Fond № 3629.4-cü səhifə "İllərin dərinliyindən gələn səslər" adlanır.Burada və üzərində arxiv nömrələri qeyd olunmuş qutularda klassik xanəndələr və onlar arasında Məşədi Məmməd Fərzəliyevə aid material toplanıb.

Bu yaxınlarda filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımov öz facebook səhifəsində yazıb bildirib ki, həmmüəlliflə birlikdə Məşədi Məmməd Fərzəliyevin həyat və yaradıcılığı barədə kitab nəşr etdirib.Onun verdiyi anonsdan məlum olur ki, orada yazılanlar F.Şuşinskinin vaxtılə ortaya qoyduğu məlumatla eynidir. Göründüyü kimi səhv məlumatın səhvdavamiyyəti baş alıb getməkdədir.

**Ədəbiyyat:**

***1.Bakıxanov Ə.M. Ömrün sarı simi. B.; İşıq, 1985, 78 s.***

***2.Ekran-efir qəzeti. 7-13 yanvar 2002***

***3.Kommunist qəzeti. 29 dekabr 1957***

***4.Rəhamnlı Ə.M. Qarmon ifaçılığı sənəti və Azərbaycanda onun tədrisi (II nəşr, əlavələrlə). B.; MBM, 2014, 704 s.***

***5.Şuşinski F. (Həsənov F.M.) Azərbaycan xalq musiqiçiləri. B.; Yazıçı, 1985, 478 s.***

*Əhsən* Rəhmanlı
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***